**Qərar № 22/160**

# 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 sentyabr 2015-ci il tarixli 05 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 82 saylı Ağcabədi seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Nəcəfli Rəşid Mikayıl oğlu 23 sentyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına müraciət edərək imza vərəqələrinin yoxlanılması prosesində iştirak etməsinə maneçilik törədildiyini bildirmiş və müvafiq tədbir görülməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59.3-cü maddəsinə görə imza vərəqələri yoxlanılarkən müvafiq seçki komissiyasında namizədlər, onların səlahiyyətli nümayəndələri, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. Müvafiq seçki komissiyası imza vərəqələrinin yoxlanılması haqqında göstərilən şəxslərə qabaqcadan məlumat verməlidir. Seçki komissiyası namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun göndərdiyi şəxsin həmin tədbirlərdə iştirakına etiraz edə və ya maneçilik törədə bilməz.

Göründüyü kimi, irəli sürülmüş namizədin imza vərəqələrinin yoxlanılması prosesində iştirakı Seçki Məcəlləsində təsbit edilmişdir. Ona görə də hazırkı müraciət əsaslı hesab edilərək təmin edilməli, onun imza vərəqələrinin yoxlanılması prosesində iştirakının təmin edilməsi dairə seçki komissiyasına həvalə edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 82 saylı Ağcabədi seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Nəcəfli Rəşid Mikayıl oğlunun 23 sentyabr 2015-ci il tarixli 05 saylı müraciəti təmin edilsin, imza vərəqələrinin yoxlanılması prosesində onun iştirakının təmin edilməsi həmin seçki dairəsinin dairə seçki komissiyasına həvalə edilsin.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Müavin** Natiq Məmmədov
**Katib** Arifə Muxtarova

**Üzvlər**

Şaitdin Əliyev
Fuad Cavadov
Ramiz İbrahimov
Validə Kazımova
Qabil Orucov
Tofiq Həsənov
İlham Məmmədov
Nizami Nadirov
Azər Tağıyev
Tamam Cəfərova
Bəxşeyiş Əsgərov
Almas Qəhramanlı
Akif Qurbanov
Etibar Quliyev

*23.09.2015*